# AZƏRBAYCAN RESPUBLİKASI

# DAXİLİ İŞLƏR NAZİRLİYİ

# POLİS AKADEMİYASI

**Elmi Şuranın 27 dekabr 2025-ci il**
**tarixli iclasının qərarı (protokol №2)**

# ANTİPLAGİAT VƏ AKADEMİK DÜRÜSTLÜK SİYASƏTİ

**Bakı - 2025**

**Antiplagiat və akademik dürüstlük siyasəti sənədi**

Bu sənəd Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Polis Akademiyasında elmi və tədris fəaliyyətində akademik dürüstlüyün təmin edilməsi, müəllif hüquqlarının qorunması və plagiat hallarının qarşısının alınması məqsədilə hazırlanmışdır. Bu sənəddə əks etdirilən müddəalar Akademiyanın daimi və dəyişən heyətinə, eləcə də elmi yaradıcılıq fəaliyyəti ilə məşğul olan əməkdaşlarına şamil olunur.

## 1. Əsas anlayışlar

1.1. Plagiat - digər müəllifin fikirlərinin və tədqiqatının mənbə göstərilmədən istifadə edilməsi və ya qanunsuz öz adına çıxarılmasıdır;

1.2. Antiplagiat sistemi - elmi işlərdə mənimsənmənin qarşısını almaq və təqdim olunan mətnlərin digər mənbələrlə uyğunluğunu müəyyən edən elektron platformadır;

1.3. Akademik dürüstlük - tədqiqat prosesində etik davranış qaydalarına, şəffaflıq və məsuliyyət prinsiplərinə əsaslanan fəaliyyət formasıdır.

## 2. Hüquqi əsaslar

2.1. Antiplagiat sisteminin əsas məqsədi buraxılış işləri, magistr və doktorluq dissertasiyaları, həmçinin tədris vəsaitləri, məqalələr və monoqrafiyaların eynilik səviyyəsinin yoxlanılmasını təmin etməklə, elmi fəaliyyətin nəticələrinin orijinallığını qorumaq və elmi plagiat hallarının qarşısının alınması qaydalarını müəyyən etməkdir.

**2.2. Siyasətin hüquqi əsası aşağıdakı normativ hüquqi aktlarla tənzimlənir:**

2.3. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 728 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Elmi dərəcələr verilməsi qaydası haqqında Əsasnamə” və “Elmi adlar verilməsi qaydası haqqında Əsasnamə”;

2.4. “Elm haqqında” Azərbaycan Respublikasının 14 iyun 2016-cı il tarixli 271-VQ nömrəli Qanunu;

2.5. “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikasının 5 iyun 1996-cı il tarixli 115-IQ nömrəli Qanunu;

2.6. “Müəlliflik hüququnun və əlaqəli hüquqların müdafiəsi sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının 7 fevral 1996-cı il tarixli 20-IQ nömrəli Qanunu;

2.7. Azərbaycan Respublikası Təhsil Nazirinin 05 iyul 2016-cı il tarixli 464 nömrəli əmri “Təhsil müəssisələrində hazırlanan tədris vəsaitlərində plagiat halları ilə mübarizənin gücləndirilməsi haqqında”.

2.8. Bu qaydalar Akademiyanın struktur şöbə, bölmə və kafedralarında Antiplagiat və dürüstlük siyasətinin həyata keçirilməsini və qorunmasını təmin edir.

## 3. İşin antiplagiat sisteminə daxil edilməsi prosesi

3.1. Tədris ili başlandıqdan sonra müəlliflər (təhsilalanlar), elmi rəhbərlər və kafedra əməkdaşları üçün istifadəçi hesabları sistem administratoru tərəfindən yaradılır.

3.2. Elmi yaradıcılıq fəaliyyəti ilə məşğul olan əməkdaşlar elmi işlərini "StrikePlagiarism.com" platformasına DOC və ya DOCX formatında müstəqil şəkildə yükləməlidirlər. Digər formatlarda sənədlərin təqdim edilməsinə yol verilməməlidir.

3.3. Buraxılış və kvalifikasiya işləri müdafiədən ən azı 30 gün əvvəl platformaya yüklənməlidir. Yoxlama prosesi müdafiədən 10 gün öncə tamamlanmalıdır.

3.4. Eynilik faizinin Akademiya tərəfindən müəyyən edilmiş həddi (30%) keçməsi halında iş redaktə üçün geri qaytarılır və müəllifə bir dəfə düzəliş imkanı verilir.

3.5. Elmi rəhbər işin təhlili və qərarın qəbulunu 10 iş günü müddətində həyata keçirir.

3.6. Qərar üç formada qəbul olunur:

3.6. İş qəbul edilir;

3.7. Düzəliş üçün geri qaytarılır;

3.8. Diskvalifikasiya edilir.

3.9. Qərar əsaslandırılaraq sistemdə saxlanılır və müəllifə elektron poçt vasitəsilə göndərilir.

## 4. Elmi işlərin plagiata dair qiymətləndirilmə meyarları

4.1. Tədqiqat xarakterli işlərin orijinallıq dərəcəsi "StrikePlagiarism.com" elektron platforması vasitəsilə aparılan yoxlama nəticəsində müəyyən olunur. Qiymətləndirmə zamanı sistemin təqdim etdiyi Eynilik Hesabatı əsas göstərici kimi qəbul edilir.

4.2. İşin orijinallıq səviyyəsinin qiymətləndirilməsi aşağıdakı meyarlara uyğun həyata keçirilir:

4.2.1. 0–10% arası oxşarlıq — iş tam orijinal hesab olunur, plagiat izləri müşahidə edilmir;

4.2.2. 11–25% arası oxşarlıq — qismən bənzərlik müəyyən edilir, iş elmi rəhbərin nəzarəti ilə redaktə edilməlidir;

4.2.3. 26–40% arası oxşarlıq — mətnin əhəmiyyətli hissəsində təkrarlanmalar aşkarlanır, iş yenidən işlənməli və təkrar yoxlamadan keçirilməlidir;

4.2.4. 41% və daha çox oxşarlıq — plagiat faktı kimi qiymətləndirilir, belə işlər müdafiəyə buraxılmır və etibarsız hesab olunur.

4.3. Oxşarlıq dərəcəsinin müəyyənləşdirilməsi zamanı sitatlar, ədəbiyyat siyahısı və istinadlar sistemdə texniki istisna kimi çıxarıla bilər. Lakin bu istisnalar yalnız elmi rəhbərin yazılı təsdiqi ilə qeyd edilir.

4.4. Elmi işin plagiata dair yekun qiymətləndirilməsi elmi rəhbər tərəfindən aparılır. Onun qəbul etdiyi qərar qiymətləndirmə protokolunda əsaslandırılmış şəkildə qeyd olunur.

4.5. Əgər plagiat faktı təsdiqlənərsə, müəllifə bu barədə rəsmi bildiriş göndərilir və iş müdafiəyə qəbul edilmir. İşin yenidən təqdimatı yalnız müvafiq hissələrdə redaktə və həmin hissələr üzrə təkrar yoxlamadan sonra mümkündür.

4.6. Plagiatla bağlı qaydaların pozulmasına görə məsuliyyət daşıyan əməkdaşlar professor-müəllim heyətinin reytinq meyarlarına əsasən mənfi göstərici ilə qiymətləndirilir, eləcə də bununla bağlı Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsi tərəfindən Akademiya rəhbərliyinə məlumat verilir.

## 5. Plagiat yoxlamasının nəticələrinə dair apellyasiya qaydası

5.1. Müraciətə baxılması məqsədilə Akademiyanın elmi dərəcəsi və adı olan əməkdaşlarından ibarət tərkiblə Apellyasiya Komissiyası yaradılır.

5.2. Müəllif plagiat yoxlamasının nəticələri ilə razı olmadıqda 3 iş günü müddətində işə yenidən baxılması üçün yazılı formada apellyasiya ərizəsi təqdim edə bilər.

5.3. Apellyasiya müraciəti Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinə ünvanlanır və əsaslandırılmış şəkildə tərtib edilməlidir.

5.4. Komissiya müraciəti 5 iş günü ərzində nəzərdən keçirərək yekun qərar qəbul edir.

5.5. Komissiyanın qəbul etdiyi qərar məcburi xarakter daşıyır və nəticələr barədə müəllifə yazılı məlumat təqdim olunur.

## 6. Akademik dürüstlüyün təmin edilməsi prinsipləri

6.1. Akademiyada elmi fəaliyyətin bütün mərhələlərində şəffaflıq, məsuliyyət və obyektivlik prinsipləri təmin olunmalıdır.

6.2. Akademik dürüstlüyə zidd hərəkətlərə aşağıdakılar aiddir:

6.2.1. Plagiat və saxtalaşdırma;

6.2.2. Başqasının işindən icazəsiz istifadə;

6.2.3. Qəsdən yanlış məlumat təqdim etmə;

6.2.4. Özünə və ya başqasına əsassız üstünlük qazandırma cəhdləri.

6.3. Dürüstlük prinsiplərinin pozulması halları qeydə alındıqda Akademiya rəhbərliyinin göstərişi əsasında məsul əməkdaşlar barəsində müvafiq tədbirlər görülür.

6.4. Plagiat faktı aşkar olunan işlər müdafiəyə buraxılmır və ya nəticələri ləğv edilir.

## 7. Yekun müddəalar

7.1. Antiplagiat və dürüstlük siyasətinin icrasına nəzarət Akademiyanın Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsi tərəfindən həyata keçirilir.

7.2. Sənədin müddəaları bütün əməkdaşlar, magistrantlar və doktorantlar üçün məcburidir.

7.3. Bu sənəd DİN-in Polis Akademiyasının Elmi Şurasının qərarı ilə təsdiq edildiyi tarixdən qüvvəyə minir.